# Azərbaycan macərasevər turistlərin seçdiyi ölkələrdən biri oldu

***“Lonely Planet” nəşri 2020-ci il üçün dünyanın macəra turizminin inkişafı üçün potensialı olan ölkələrin siyahısını tərtib edib. Siyahıda ölkəmizin adı ilk onluqda yer alıb. Britaniyanın macəra turizminin təşviqində əhəmiyyətli rol oynayan BBC cəmiyyəti hər il turistlər üçün maraqlı ola biləcək ölkələrin siyahısını tərtib edir.***

Macəra turizminə üstünlük verən turistlər minimal məbləğ və minimal rahatlıqla dünyanı özləri üçün kəşf etməyə üstünlük verən insanlardır. Dünyada geniş yayılmış bu turizm növünə maraq böyükdür. Turistlər daha az pulla daha çox maraqlı və tarixi yerləri gəzir, səyahət etdikləri




ölkənin mədəniyyəti, mətbəxi və adət-ənənələri ilə tanış olurlar.

BBC-nin macərasevər turistlər üçün hazırladığı siyahıda beşinci yerdə qərarlaşan Azərbaycanla yanaşı, İndoneziyanın Şərqi Nusa Tenggara vilayəti, Macarıstanın Budapeşt şəhəri, Hindistanın Madhya Pradeş vilayəti, ABŞ-ın Buffalo şəhəri, Serbiya, Tunis, CAR-ın Keyp Vaynlands dairəsi, Yunanıstanın Afina şəhəri, Tanzaniyanın Zanzibar arxipelaqı da yer alıb.

Ölkələr seçilərkən onların təbiəti, müxtəlif dövrlərə aid tarixi abidələri, Şərq mədəniyyəti və memarlığını əks etdirən bazar və məscidləri, eləcə də yerli əhalinin qonaqpərvərliyi, ölkədə infrastrukturun kifayət qədər inkişafı və s. nəzərə alınıb.

Azərbaycanın zəngin mədəni irsi və milli adət-ənənələri, dünya, eləcə də yerli əhəmiyyətli tarixi abidələrin zənginliyi və




müxtəlifliyi ölkəyə gələn turistlərin daim diqqətindədir. Ölkəmizin Şərq və Qərb mədəniyyətini təmsil etməsi, xüsusən də Bakının müasirliyi və tarixiliyi özündə uğurla cəmləşdirməsi 2020-ci ildə də daha çox turistin ölkəmizə gəlməsinə səbəb olacaq.

Rusiyanın “İzvestiya” qəzeti” Rusiya Federasiyasının Azərbaycandakı səfiri Mixail Boçarnikovun Rusiya qazının TANAP layihəsinə qoşula bilməsi ilə bağlı CBC kanalında səsləndirdiyi fikirlərə yer ayırıb. Qəzetin yazdığına görə, səfir CBC kanalında yayımlanan “Anastasiya Lavrina ilə qlobal müzakirə” ictimai-siyasi proqramında hər iki ölkənin neft-qaz ölkəsi olduğunu bildirib və Azərbaycanda neft və qaz-kondensat yataqlarının işlənməsində Rusiyanın iştirakını vurğulayıb:

“Kim bilir, bizim qaz da hansısa mərhələdə TANAP layihəsinə qoşular, mən bunu istisna etməzdim.”

TANAP layihəsinin uğurla reallaşdırılmasına görə, Azərbaycanı təbrik edən rusiyalı səfir Boçarnikov verilişdə “Şimal-Cənub” dəhlizinin uğurlu fəaliyyəti və Azərbaycanın burada əsas rol oynadığını qeyd edib: “Təcrübə göstərdi ki, 2018-ci ildə dəhliz boyunca yük daşımaları səkkiz dəfə artıb və 2019-cu ilin birinci rübündə iki qat artım müşahidə olunub. Yəni, bu dəhliz çox uğurla işləyir. Azərbaycanın onun fəaliyyətində əsas rol oynaması burada Qərbdən-Şərqə yeni yolun kəsişməsinə səbəb ola bilər. Hansı ki, ümumilikdə, bu, baş verir”, – deyə M.Boçarnikov bildirib.

**Əfsanə BAYRAMQIZI,**
**“Xalq qəzeti”**